# Regionlarla tanışlıq şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşmasında əvəzsiz rol oynayır

## Məktəblilər "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən ağacəkmə aksiyasında iştirak ediblər

*Martın 23-dən 26-dək respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün nəzərdə tutulan "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyanın növbəti turuna start verilib.*



Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Ağstafa, Daşkəsən, Göyçay, Qazax və Tovuz məktəblilərindən ibarət 5 qrupun üzvləri martın 23-də, günorta saatlarında Qəbələyə gəliblər.



Şagirdləri Qəbələ şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında rayon icra hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri qarşılayıb.

"Qafqaz Karvansaray" otelinə yerləşən şagirdlər nahar etdikdən sonra Qəbələ ilə tanış olublar. Ümumilikdə 200 nəfər şagird və onlara rəhbərlik edən müəllimlərin iştirakı iləproqrama uyğun olaraq əvvəlcə Dəmiraparan çayın sahilində "Ölkəmizi tanıyaq" devizi altında ağacəkmə aksiyası keçirilib. Yaşıllaşdırma aksiyası zamanı məktəblilər 200-dən çox küknar, ağcaqayın və palıd ağacı əkiblər.

Axşam tur-aksiya iştirakçılarına Qəbələ Mədəniyyət Mərkəzində konsert proqramı təqdim olunub. Yerli musiqiçilərin hazırladıqları iki saatlıq konsertdə xalq və bəstəkar mahnıları, aşıq musiqiləri səsləndirilib. Konsert şagirdlərin böyük marağına səbəb olub və alqışlarla qarşılanıb.

**«Qəbələ».**

## Qəbələdə «Nə? Harada? Nə zaman?» intellektual oyunu keçirilib

Qəbələ rayonunun tarixi abidələri, turizm obyektləri və istehsal müəssisələri ilə tanış olan Ağstafa, Daşkəsən, Göyçay, Qazax və Tovuz məktəblilərinin şagirdləri arasında "Nə? Harada? Nə zaman?" adlı intellektual oyun keçirilib. Məktəblilərin öz biliklərini nümayiş etdirmək imkanı qazandıqları oyun gərgin mübarizə şəraitində keçib.



Yarışın nəticələrinə görə, Qazax məktəbliləri 1-ci, Göyçay şagirdləri 2-ci, Tovuz komandası isə 3-cü yerə layiq görülüb.

Qaliblərə kubok, medallar və sertifikatlar təqdim olunub.

**«Qəbələ».**

## Şagirdlər Qəbələnin tarixi abidələri, turizm obyektləri və istehsal müəssisələri ilə tanış olublar

*Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Gəncə, Gədəbəy, Göygöl, Samux, Şəmkir, Aöcabədi, Ağdam, Bərdə, Beyləqan, İmişli, Füzuli Ağstafa, Daşkəsən, Göyçay, Qazax və Tovuz məktəblilərindən ibarət qrupun üzvləri Azərbaycanın dilbər guşələrindən olan Qəbələ rayonunda tarixi abidələr, müasir istehsal müəssisələri, turizm, mədəniyyət və idman obyektləri ilə tanış olublar.*



Şagirdlər əvvəlcə Heydər Əliyev Mərkəzini ziyarət edib, ulu öndərin həyatını və siyasi fəaliyyətini əks etdirən fotoşəkillər və sənədlərlə tanış olublar.

Ümumilikdə 600 məktəblinin Qəbələ ilə tanışlığı zamanı növbəti ünvan "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi olub. Bölgənin ən çox turist qəbul edən bu obyekti ilə tanışlıq zamanı şagirdlərə məlumat verilib ki, kompleksin 4 kanat xəttinin və 10 xizək yolunun hamısında tikinti işləri başa çatdırılıb, turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu "Tufandağ" oteli açılıb. Bütün dağ-xizək trassası süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib və gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsi üçün şərait yaradılıb. 4 kanat xəttinin ümumi uzunluğu 6 kilometr, 10 xizək yolunun uzunluğu



isə 17 kilometrdir. "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinin xidmətlərindən ötən 3 ildə 360 mindən çox yerli və xarici turist bəhrələnib.

Şagirdlər kanat yolu ilə yüksəklikdən Qəbələ şəhərini və ətrafdakı çayları, meşələri, gözəl mənzərəni seyr edib, xatirə şəkli çəkdiriblər.

Heydər Əliyev adına Konqres Mərkəzi ilə tanışlıq zamanı məlumat verilib ki, 1200 yerlik mərkəz üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə zallar, 350 yerlik restoran və inzibati otaqlar yerləşir. Çoxfunksiyalı 1200 yerlik konfrans zalı isə ikinci mərtəbədədir. Konfrans zalı qısa müddətə başqa məqsədlər - konsert, iclas üçün kresloların aşağı enməsi ilə müstəvi halına keçə bilir.

Sonra şagirdlər Tarix-Diyarşünaslıq Muzeyində 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin tarixi, mədəniyyəti və etnoqrafiyası haqqında məlumat əldə ediblər. Bildirilib ki, muzeyin əsas fondunda Qəbələnin 2500 illik tarixini əks etdirən 12 mindən çox tarixi və elmi əhəmiyyətə malik eksponat mühafizə olunur.



"Beltmann" piano fabrikində istehsal prosesi ilə yaxından tanış olan tur-aksiya iştirakçılarının diqqətinə çatdırılıb ki, müəssisədə dünyada məşhur olan "Beltmann" markalı pianolar istehsal olunur. Fabrik ildə 1200-1500 piano istehsal etmək gücünə malikdir.

Daha sonra Nic qəsəbəsinə səfər edən şagirdlər buradakı "Cotari" Alban-Udi kilsəsinə maraqla baxıblar. Məlumat verilib ki, kilsə tarixi baxımdan qədim və əhəmiyyətli abidələrdən biridir. Nic qəsəbəsi tolerantlığın kiçik bir modeli hesab edilir. Qəsəbədə 3 kilsə və iki məscid var. Altı min əhalisi olan qəsəbədə 3700 udi yaşayır. Udilər öz dilini, dinini, adət-ənənələrini bu günə qədər qoruyub saxlamışlar. Nicdəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur.

Məktəblilər sonra Qəbələ Konserv Zavodunda istehsal prosesi ilə tanış olublar. On iki hektar ərazidə yerləşən müəssisənin istehsal gücünə və texnoloji parametrlərinə görə Qafqazda analoqu yoxdur. Ümumilikdə 350 nəfərin çalışdığı müəssisədə 30 çeşiddə meyvə şirəsi, konsentrat, nektar, 12 çeşiddə turşu, tomat, mürəbbə, cem, soyuq çaylar, 15 çeşiddə yarımfabrikat məhsullar hazırlanır. Məhsullar daxili bazara çıxarılmaqla yanaşı, 30-dan çox ölkəyə ixrac edilir.

Həmçinin şagirdlər Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna səfər edib, qədim Qəbələ şəhərinin qalıqları və ərazidə aparılan arxeoloji qazıntıların nəticələri, eləcə də Qəbələ Arxeoloji Mərkəzində nümayiş olunan maddi-mədəniyyət nümunələri ilə tanış olublar. Məlumat verilib ki, Azərbaycanın ən qədim şəhərlərindən olan Qəbələnin çox zəngin tarixi var. Bu rayondakı ölkə əhəmiyyətli qədim memarlıq abidələri mədəni irsimizin nadir inciləri hesab olunur. Tur-aksiyanın iştirakçılarına bu gün sürətlə inkişaf edərək Azərbaycanın gözəl şəhərlərindən birinə çevrilən Qəbələ şəhəri barədə geniş məlumat verilib.

Şagirdlər Qəbələyə səfərin sonunda "Gilan" qida şəhərciyi, beşulduzlu "Qafqaz-Riverside", "Qafqaz-Resort", "Qafqaz-Yeddi Gözəl", "Qafqaz-Yengicə Termal Hotel və SPA", "Qafqaz-Karvansaray" otelləri, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzi, rayonda yaradılan müasir turizm infrastrukturu, bölgənin füsunkar təbiəti ilə də tanış olublar.

**«Qəbələ».**

**İlkin Vəlizadə.**